**19-22 may tarixlərində Tacikistanda Azərbaycan Mədəniyyəti Günləri keçirilir. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə baş tutan tədbirlə əlaqədar nazir Adil Kərimlinin rəhbərlik etdiyi geniş nümayəndə heyəti Düşənbədə səfərdədir.**



# Mədəniyyət naziri Düşənbədə həmkarı ilə görüşüb

Mayın 20-də Tacikistan Milli Kitabxanasında mədəniyyət naziri Adil Kərimli ilə tacik həmkarı xanım Matlubaxon Sattoriyen arasında ikitərəfli görüş keçirilib. İkitərəfli görüşdə Tacikistanın mədəniyyət naziri Matlubaxon Sattoriyen Azərbaycan Mədəniyyəti Günlərini xalqlarımızı daha da yaxınlaşdıran mədəni hadisə kimi səciyyələndirib.

Xanım nazir ötən ilin may ayında Azərbaycanda keçirilən Tacikistan Mədəniyyəti Günlərinin yüksək səviyyədə gerçəkləşməsinə göstərdiyi dəstəyə, səmərəli görüşlərə görə Azərbaycan Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirib.

Qeyd olunub ki, iki ölkənin dövlət başçılarının səmimi dostluq münasibətləri Azərbaycan və Tacikistan arasında əlaqələrin hərtərəfli inkişafında müstəsna əhəmiyyətə malikdir. Prezidentlər İlham Əliyev və İmoməli Rəhmon tərəfindən 2024-cü ilin 23 may tarixində Bakıda "Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə"nin imzalanması dost ölkələrin əməkdaşlığının zirvəyə yüksəlməsinin göstəricisidir.

Adil Kərimli iki ölkə arasında mədəniyyət sahəsi üzrə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğunu deyib. Qeyd edib ki, Azərbaycanın Düşənbədəki səfirliyi də mədəni əlaqələrin inkişafı üçün davamlı dəstək göstərir. Azərbaycan tərəfi kinematoqrafiya, kitabxana, mədəni irs və digər sahələrdə əməkdaşlığın inkişafında maraqlıdır.

Bu günlərdə Bakıda ICESCO-nun regional ofisinin açıldığını diqqətə çatdıran Adil Kərimli ofisin Azərbaycanla yanaşı, Mərkəzi Asiya Respublikalarının, o cümlədən Tacikistanın da qurumla əməkdaşlığını koordinasiya edəcəyini deyib.

Söhbət zamanı Azərbaycanın Laçın şəhərinin 2025-ci ildə "MDB-nin mədəniyyət paytaxtı" statusunu yerinə yetirdiyi bildirilib, Tacikistan tərəfi iyun ayının əvvəlində Laçında keçiriləcək "paytaxt ili"nin açılış tədbirinə dəvət edilib.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**

Respublika .- 2025.- 21 may (№104).- S.10.